

Türkiyənin Mersin şəhərində dəhşətli hadisə baş verib.

ANS PRESS-in məlumatına görə, nikahdan kənar hamilə qalan A.K. müayinə olunmaq üçün anası tərəfindən xəstəxanaya gətirilib.

19 yaşında olan A.K həkimlərin ona hamilə olub-olmadığı barədə təkrar-təkrar verdiyi suala “xeyir” cavabını verib. Daha sonra qadın bəzi analizləri həkimlərə vermək üçün ayaqyoluna gedib. A.K-nın ayaqyolundan çıxması xeyli vaxt çəkib. Bu isə mühafizə xidmətinin işçilərini şübhələndirib. Mühafizəçilər qapını sındırıb içəri daxil olarkən zibil qutusunda yeni doğulmuş qız uşağını və A.K-nı görüblər. Hər ikisi xəstəxanaya yerləşdirilib. Polis qızın anası və dayısını saxlayıb. .